**MƏTBUAT ÜÇÜN MƏLUMAT**
**Bakı , 18.06.2021**

# ADA və Xəzər Universitetləri ilə birlikdə "Bakı Fond Birjasında qiymətli kağızların buraxılışı və Listinq Məsləhət Proqramı" mövzusunda təlim keçirilmişdir.

17 iyun 2021-ci il tarixində ADA universitetində keçiriləcək "onlayn masterclass"-da Bakı Fond Birjasının (BFB) mütəxəssisləri qonaq təlimçi qismində ADA və Xəzər universitetlərinin MBA tələbələrinin iştirakı ilə kapital bazarlarına dair təlim keçirmişdir.

Təlimdə BFB tərəfindən birjada qiymətli kağızların listinqi və buraxılışı, listinqin üstünlükləri və Listinq Məsləhət Proqramı barədə təqdimat keçirilmişdir. Qeyd edək ki, BFB Listinq Məsləhət Proqramının tərəfdaşı olan təhsil qurumları ilə birlikdə davamlı olaraq kapital bazarları ilə bağlı mövzularda təlimlər təşkil edir. Bu kimi keçirilən təlimlərin əsas məqsədi kapital bazarları ilə bağlı nəzəri və praktiki biliklərə sahib kadrların yetişdirilməsinə dəstək olmaqdır.